## IV. Şəxsiyyət Hüquqları (2-1-ci fəsil – təklif)

### 4.1. Giriş

_Ümumi məlumat_

4.1.1. MM-in hazırda qüvvədə olan normaları şəxsiyyət hüquqlarının və onların pozulmasına görə dəyən mənəvi zərərin tənzimlənməsi üçün kifayət etmir. MM səviyyəsində həmin məsələlər əsasən Məcəllənin 23-cü maddəsi ilə tənzimlənir və daha çox şəxsin şərəf və ləyaqətinin müdafiəsi mexanizmlərini təsbit edir.

Lakin şəxsin şəxsiyyət hüquqları yalnız onun şərəf və ləyaqətinin müdafiəsi ilə məhdudlaşmır. Həmçinin mənəvi zərərə görə kompensasiya ilə əlaqədar hazırkı tənzimləmədə boşluqlar (məsələn, mənəvi zərərin anlayışı, tətbiqi əsasları, mənəvi zərərə görə kompensasiyanın hesablanma qaydası (meyarları), tələb hüququ olan şəxslərin dairəsi, hüquqi şəxslərin tələb hüququnun olmaması, mənəvi zərər tələbi ilə bağlı hüquq varisliyi məsələsi və s.) mövcuddur.

Qeyd olunan məsələ ilə əlaqədar qanunvericilikdə mövcud olan boşluqların bir hissəsi Konstitusiya Məhkəməsinin Plenumunun[1] və Ali Məhkəmənin Plenumunun[2] bir sıra qərarları ilə qismən aradan qaldırılmışdır. Eyni zamanda, Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair” 31 may 2002-ci il tarixli Qərarının 2-ci bəndi ilə şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi ilə yanaşı Azərbaycan Respublikası Mülki Məcəlləsində digər qeyri-əmlak hüquqlarının və qeyri-maddi nemətlərin müdafiəsinin müəyyən edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmuşdur. Odur ki, müvafiq sahənin və aidiyyəti ictimai münasibətlərin əhəmiyyətini nəzərə alaraq, hesab edirik ki, həmin sahədə normativ tənzimetmə dəqiqləşdirilməli və onun tamlığı təmin edilməlidir.

Göstərilənləri nəzərə alaraq, MM-də şəxsiyyət hüquqlarının daha ətraflı tənzimlənməsi məqsədilə MM-in 2-ci fəslindən sonra aşağıdakı redaksiyada “şəxsiyyət hüquqları” adlanan yeni fəslin əlavə edilməsi təklif edilir. Qeyd edilməlidir ki, bu fəslin hazırlanmasında daxili qanunvericiliyin tələbləri ilə yanaşı bir sıra xarici ölkələrin, o cümlədən Türkiyə, İsveçrə və Rusiyanın təcrübəsindən, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Avropa İnsan Hüquqları Məhkəməsinin formalaşdırdığı hüquqi mövqelərdən istifadə edilmişdir.

---

[1] Məsələn, Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair” 31 may 2002-ci il tarixli və “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair” 24 aprel 2020-ci il tarixli Qərarları.

[2] Ali Məhkəmənin “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” 3 noyabr 2008-ci il tarixli 7 nömrəli Plenum Qərarı.

*Fəsil niyə "Şəxsiyyət hüquqları" adlandırılıb?*

4.1.2. Qeyd etmək lazımdır ki, bu fəslin adlandırılması ilə bağlı dörd əsas termin nəzərdən keçirilmişdir: *"şəxsi (qeyri-əmlak) hüquqları", "qeyri-əmlak hüquqları", "şəxsi hüquqlar"* və *"şəxsiyyət hüquqları"*. Birinci terminlə bağlı qeyd edilməlidir ki, bu termin əsasən postsovet ölkələrində istifadə edilir, lakin əksər inkişaf etmiş yurisdiksiyalarda geniş tətbiq olunmur. Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsində də bu termindən istifadə olunduğuna rast gəlinməmişdir. Üstəlik, bu termin normayaratma texnikası baxımından da uğurlu hesab edilmir (belə ki, müvafiq termin yeddi simvoldan - dörd sözdən, iki mötərizədən və bir defisdən - ibarətdir). "Qeyri-əmlak hüquqları" termini isə bu hüquqların şəxsiyyətlə əlaqəsini yetərincə aydın ifadə etmir və müəyyən çaşqınlıqlara səbəb ola bilər. Eyni zamanda, bu termin də xarici ölkələrin təcrübəsində geniş istifadə edilmir. "Şəxsi hüquqlar" terminінə gəldikdə isə, bu termin kontinental hüquq doktrinasında şəxsiyyətlə bağlı qeyri-əmlak hüquqlarından daha çox "nisbi hüquqlar" kateqoriyasına aid olan və konkret şəxslərə qarşı müdafiə edilən şəxsi əmlak hüquqlarını (*in personam* tələblərini[3]) ifadə etmək üçün istifadə edilir[4] və bu səbəbdən nəzərdə tutulan mənanı dəqiq ifadə etmir (şəxsi əmlak tələbləri ilə şəxsi qeyri-əmlak hüquqlarının qarışdırılması riskini yaradır).

Göstərilənlərlə yanaşı araşdırma zamanı müəyyən edilmişdir ki, kontinental hüquq sistemində[5] məhz "şəxsiyyət hüquqları" termini müvafiq sahəyə dair mötəbər akademik mənbələrdə[6], o cümlədən xarici hüquq ensiklopediyalarında[7] ən geniş yayılmış və inkişaf

---

[3] Əşya ilə bağlı "*in rem* tələbləri"nin əksi olaraq.

[4] Kontinental hüquq ənənəsində "şəxsi hüquqlar" (*personal rights*) termini ilə "nisbi hüquqların" *(relative rights)* əhatə olunması, "mütləq hüquqlar" (*absolute rights*) kateqoriyasına daxil olan şəxsiyyətlə bağlı müxtəlif qeyri-əmlak hüquqlarının isə "şəxsiyyət hüquqları" (*personality rights*) termini ilə ifadə olunması ilə əlaqədar müzakirə üçün bax *John Henry Merryman and Rogelio Pérez-Perdomo* / The civil law tradition: an introduction to the legal systems of Europe and Latin America. Stanford University Press, 2018, p.76.

[5] Anqlo-sakson ölkələrinin təcrübəsi ilə bağlı qeyd edilməlidir ki, həmin ölkələrdə müvafiq hüquqlara ümumiləşdirilmiş formada istinad edilməsi üçün bir qayda olaraq "*right to privacy*" (və ya "*right of privacy*") termindən istifadə edilir. Lakin həmin terminin məzmunu kontinental hüquq ölkələrində istifadə olunan "şəxsiyyət hüquqları" ("*personality rights*") termininin məzmunundan daha dar olduğu hesab edilir. (Məsələn, bax *Strömholm, S.*, Right of Privacy and Rights of the Personality: A Comparative Survey, Stockholm: Norstedt & Söners, 1967, p. 21, 43.)

[6] Məsələn bax: *Oğuzman M. Kemal/ Barlas Nami*, Medeni Hukuk (Giriş, Kaynaklar, Temel Kavramlar) 27.ed, onikilevha,_İstanbul, s.148;

Həmçinin bax *Neethling J, Potgieter JM & Roos A*, Neethling on Personality Rights (LexisNexis 2019) 205.

Həmçinin, bax Personality rights in European tort law / [edited by] *Gert Brüggemeier, Aurelia Colombi Ciacchi and Patrick O'Callaghan.*, Cambridge University Press, 2010.

Həmçinin bax *Huw Beverley-Smith, Ansgar Ohly, Agnès Lucas-Schloetter* / Privacy, property and personality: civil law perspectives on commercial appropriation. Cambridge University Press, Cambridge studies in intellectual property rights, 1, 2005.

[7] Məsələn, bax *Jürgen Basedow, Klaus J. Hopt, Reinhard Zimmermann with Andreas Stier* / The Max Planck encyclopedia of European private law, Vol. 2, Oxford, 2012, p.1272.

Həmçinin, bax *Jan M. Smits* (ed). Elgar encyclopedia of comparative law, 2006, p.530.

etmiş bir sıra xarici yurisdiksiyalarda (məsələn, İsveçrədə[8], Fransada[9], Almaniyada[10], Niderlandda[11], Türkiyədə[12], Yunanıstanda[13], Xorvatiyada[14], Şotlandiyada[15], Portuqaliyada[16], Çində[17] və s.) aidiyyəti hüquqlara istinad edilməsi məqsədilə istifadə olunan termindir. Eyni zamanda, Avropa İnsan Hüquqları Məhkəməsinin[18] və Avropa İttifaqının Ədalət Məhkəməsinin[19] təcrübəsində də müvafiq hüquqlara istinad edilməsi üçün "şəxsiyyət hüquqları" terminindən istifadə edilir. Qeyd edilənləri nəzərə alaraq, həmçinin bu hüquqların şəxsiyyətə birbaşa bağlılığını vurğulamaq məqsədilə fəslin "Şəxsiyyət hüquqları" olaraq adlandırılması məqsədəuyğun hesab edilmişdir.

## 4.1. **Maddə 23-1. Şəxsiyyət hüquqları** *(təklif olunan redaksiya)*

**"2-1-ci fəsil. Şəxsiyyət hüquqları"**

---

[8] İsveçrədə bu hüquqlar *"Persönlichkeitsrechte"* adlanır. İsveçrə Mülki Qanununun 268d[316], 28[30], 28g[38]-ci maddələri.

[9] Fransada bu hüquqlar "*des droits de la personnalité"* adlanır. Məsələn, bax Personality rights in European tort law / [edited by] *Gert Brüggemeier, Aurelia Colombi Ciacchi and Patrick O'Callaghan.*, Cambridge University Press, 2010, p.13.

[10] Almaniyada bu hüquqlar "*Persönlichkeitsrecht*" adlanır. Məsələn, bax van der Sloot, B. (2015) 'Privacy as Personality Right: Why the ECtHR's Focus on Ulterior Interests Might Prove Indispensable in the Age of "Big Data"', *Utrecht Journal of International and European Law*, 31(80), p. 26. https://doi.org/10.5334/ujiel.cp.

[11] Niderland hüquq doktrinasında bu hüquqlar "*persoonlijkheidsrechten*" adlanır. Məsələn, bax *Lindenbergh, S.D.* , 'De positie en de handhaving van persoonlijkheidsrechten in het Nederlandse privaatrecht', Tijdschrift voor Privaatrecht, 36, 1665–1707 (1999). Həmçinin bax *Mak, C.* , 'Personality rights in the German and Dutch law of obligations', in M.W. Hesselink, C.E. du Perron and A.F. Salomons (eds), Privaatrecht tussen Autonomie en Solidariteit, The Hague: Boom Juridische Uitgevers, 2003.

[12] Türkiyədə bu hüquqlar "*kişilik hakları*" adlanır. Bax Mədəni Qanununun 23, 24, 25-ci maddələri.

[13] Yunanıstanın Mülki Məcəlləsinin 57-ci maddəsi. Həmin maddənin müzakirəsi ilə əlaqədar bax *Strömholm, S.*, Right of Privacy and Rights of the Personality: A Comparative Survey, Stockholm: Norstedt & Söners, 1967, p. 42.

[14] Xorvatiya qanunvericiliyində bu hüquqlar "*prava osobnosti*" adlanır (Bax Xorvatiyanın "Mülki öhdəliklər haqqında" Qanunun 19-cu maddəsinə və həmin maddəni təhlil edən Avropa İnsan Hüquqları Məhkəməsinin CASE OF ĐORĐEVIĆ v. CROATIA *(Application no. 41526/10), § 71-72,* https://hudoc.echr.coe.int/eng?i=001-112322.

[15] Məsələn, bax *Niall Whitty; Reinhard Zimmermann /* Rights of Personality in Scots Law: A Comparative Perspective. Edinburgh University Press, 2009.

[16] Portuqaliyada bu hüquqlar "*direitos de personalidade*" adlanır. Bax Portuqal Mülki Məcəlləsinin 70-ci maddəsinə. Həmin maddənin müzakirəsi ilə bağlı bax *C. Busch & H. Schulte-Nölke* (Eds.), EU Compendium – Fundamental Rights and Private Law, Sellier European Law Publishers, Munich, 2011, p. 2.

[17] Məsələn bax Çin Mülki Məcəlləsinin və "Şəxsiyyət hüquqları haqqında" Qanunun müddəalarını təhlil edən *Wang Liming and Shi Jiayou* (Eds.), Chinese Law of Personality Rights II. Codification experience. Routledge, 2023.

[18] Məsələn, bax CASE Of LEWIT v. AUSTRIA *(Application No. 4782/18), §33, online 31.10.2024, https://hudoc.echr.coe.int/eng?i=001-196380.*

[19] Məsələn, bax eDate Advertising GmbH and Others v X and Société MGN LIMITED. Judgment of the Court (Grand Chamber) of 25 October 2011 (Joined Cases C-509/09 and C-161/10), §33, https://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=CELEX:62009CJ0509.

**Maddə 23-1. Şəxsiyyət hüquqları**

23-1.1. Yaşamaq, sağlamlığın qorunması, bədən toxunulmazlığı, şərəf və ləyaqətin müdafiəsi, şəxsi və ailə həyatına hörmət, şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, fərdi məlumatların qorunması, unudulmaq hüququ, hərəkət etmək azadlığı, olduğu yeri və yaşayış yerini seçmək azadlığı, ad hüququ, müəllifin mənəvi hüquqları, habelə anadangəlmə və ya qanunla şəxsə mənsub olan digər şəxsiyyət hüquqları özgəninkiləşdirilə və ya hər hansı başqa üsulla digər şəxslərə verilə bilməz.

23-1.2. Şəxsin şəxsiyyət hüququna qanunsuz müdaxilə edildikdə, həmin şəxs pozulmuş hüququnun müdafiəsi üçün bu Məcəllə və ya digər qanunlarda nəzərdə tutulan müvafiq müdafiə üsullarından istifadə edə, o cümlədən məhkəməyə müraciət edə bilər.

23-1.3. Bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, şəxsiyyət hüququna müdaxilə o halda qanunsuz hesab edilir ki, belə müdaxilə zərərçəkən şəxsin razılığına, üstün xüsusi və ya ictimai mənafeyə, yaxud qanuna əsaslanmasın.

23-1.4. Qanunla nəzərdə tutulduğu hallarda, yaxud şəxsin mənafeləri tələb etdikdə şəxsiyyət hüquqlarının müdafiəsi həmçinin hüququn pozulması faktının məhkəmə tərəfindən tanınması, hüquq pozuntusu barədə məhkəmə qərarının üçüncü şəxslərə bildirilməsi və ya mediada yayımlanması (dərc edilməsi), pozuntuya səbəb olmuş həqiqətə uyğun olmayan məlumatların təkzib edilməsi, düzəliş verilməsi və ya onlara dair cavab verilməsi yolu ilə təmin oluna bilər.

23-1.5. Şəxsiyyət hüququ pozulmuş şəxs ona vurulmuş maddi və mənəvi zərərinin kompensasiyası ilə yanaşı hüquq pozuntusu nəticəsində əldə edilən gəliri əsassız varlanma qaydalarına uyğun olaraq ona ödənilməsini tələb edə bilər.

23-1.6. Qanunla nəzərdə tutulmuş hallarda ölmüş şəxsə mənsub olmuş şəxsiyyət hüquqları digər şəxslər tərəfindən müdafiə edilə bilər.”

*<u>23-1.1-ci maddə üzrə</u>*

4.1.1. İlk növbədə qeyd edilməlidir ki, bir qayda olaraq şəxsiyyət hüquqlarına delikt (mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir) nəticəsində zərər vurulur. Bu baxımdan Mülki Məcəllənin deliktlərlə bağlı fəslinin müddəaları bu fəslin mahiyyətinə uyğun gəldiyi dərəcədə tətbiq edilir[20].

4.1.2. Şəxsiyyət hüquqları insanın **maddi olmayan**, **mənəvi xarakterli** və onun **şəxsiyyəti ilə birbaşa bağlı olan** hüquqlardır[21]. Bu hüquqlar şəxsin əmlakı ilə deyil, onun şəxsiyyəti ilə bağlıdır. Sözügedən hüquqlar əsasən şəxsiyyətin müdafiə olunmasına yönəlir (yəni, hüquq subyektinin şəxsiyyətinin üçüncü şəxslərin hüquqa zidd davranışlarından qoruyur).

---

[20] Bax. *“Mənəvi zərərin vurulması ilə əlaqədar yaranan hüquq münasibətlərinə müvafiq qanunvericilik aktları, habelə Azərbaycan Respublikası MM-nin IX bölməsinin (Mülki hüquq pozuntularından (**deliktlər**) əmələ gələn öhdəliklər) qaydaları tətbiq edilir”.* “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 03.11.2008 tarixli Qərarı.

[21] А. П. Сергеев, Комментарий К Гражданскому Кодексу Российской Федерации, Moskva, 2018, s.487; Oğuzman, M. Kemal/Seliçi Özer/Özdemir-Oktay, Kişiler Hukuku, 19. n., İstanbul, Filiz Kitabevi, 2020, s. 170.

Bir qayda olaraq, bu hüquqlar pul ilə qiymətləndirilə[22], güzəşt edilə və vərəsəlik qaydasında ötürülə bilməyən **mütləq**[23] **hüquqlardır**[24].

4.1.3. Nəzərə alınmalıdır ki, təklif edilən 23-1.1-ci maddədə şəxsiyyət hüquqlarının **qeyri-məhdud siyahısı** *(numerus apertus)* təsbit edilmişdir[25]. Bunun səbəbi odur ki, şəxsiyyət hüquqları maddi və sabit deyildir[26]. Yəni, inkişaf edən və dəyişən ictimai münasibətlər və texniki proseslərlə bağlı olaraq bu hüquqların dairəsi genişlənə bilər[27].

4.1.4. Həmçinin, sözügedən maddədə, əmlak hüquqlarından fərqli olaraq, şəxsiyyət hüquqlarının özgəninkiləşdirilməsi və ya hər hansı başqa üsulla digər şəxslərə **ötürülməsinin mümkünsüzlüyü** təsbit edilir. Bu qayda onların hüquqi xarakterindən – şəxsiyyətin ayrılmaz hüquqları olduqlarından irəli gəlir.[28] Bununla belə qeyd edilməlidir ki, şəxsiyyət hüququnun özgəninkiləşdirilmədən istifadəyə verilməsində hər hansı bir hüquqi əngəl yoxdur. Məsələn, şəxs ona məxsus ad hüququnu özgəninkiləşdirmədən həmin addan istifadə hüququnu digər şəxsə ötürə bilər[29]. Misal üçün, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Qanunun 4-cü maddəsinə və 6-cı maddəsinin 2-ci hissəsinin (c) bəndinə görə tanınmış şəxslərin adları onların və ya vərəsələrinin icazəsi ilə əmtəə nişanı kimi qeydiyyata alına bilər.

4.1.5. Bu hüquqların **bir qayda olaraq vərəsələrə keçməsi mümkün deyildir**[30]. Bununla belə, əgər vəfat etmiş şəxsin şəxsiyyət hüququ onun ölümündən sonra pozularsa, həmin şəxsin vərəsəsi, bir qayda olaraq, pozulmuş hüququn müdafiəsi üçün məhkəmədə iddia qaldıra

---

[22] Qeyd edilməlidir ki, burada pul ilə “dəqiq” qiymətləndirilmənin mümkünsüzlüyündən söhbət gedir. Bununla belə şübhəsiz ki, şəxsiyyəthüquqlarının pozulması nəticəsində meydana gələn həm maddi, həm də mənəvi zərərin kompensasiyasını tələb etmək mümkündür. Pascal Pichonnaz/ Benedict Foex, Commentaire romand, Code civil I: Art 1-359 CC, Bale, Helbing & Lichtenhahn, 2010, s. 249.

[23] Şəxsiyyəthüquqları mütləq xarakterli *(erga omnes)* hüquqlardır, bu baxımdan həmin hüquqların müdafiəsi hüquqa zidd davranış göstərən hər kəsə qarşı həyata keçirilə bilər. Qeyd etmək lazımdır ki Alman mülki məcəlləsində spesifik olaraq şəxsiyyət hüquqları təsbit edilməmişdir lakin Alman Federal Məhkəməsi Mülki Məcəllənin 823-cü maddəsində təsbit edilən digər hüquqlar çərçivəsində şəxsiyyət hüquqlarını qorunmaqdadır. Bax. BGHZ 13, 334,339-Leserbriefe. Məhkəmə, bu qərarında,şəxsiyyət hüquqlarını mütləq hüquqlar olaraq ifadə etmişdir.

[24] А. П. Сереев, s.487; Oğuzman, M. Kemal/Seliçi Özer/Özdemir-Oktay, s. 170.

[25] İnsanın şəxsiyyətini formalaşdıran dəyərlərin tam şəkildə təsbit edilməsi mümkün hesab edilmədiyindən, şəxsiyyəthüquqlarının məhdud siyahı *(numerus clausus)* şəklində müəyyən edilməsi də mümkün deyil.

[26] Bu hüquqlardan bəzilərinin tərkibi zamanla dəyişə bilər, məsələn şəxsin sağlamlığı və ya təsviri, zaman keçdikcə dəyişikliyə məruz qala bilər. Bax: А. П. Сереев, s. 487.

[27] Pınarbaşı, Serdar, Türk Hukukunda Kişilik Hakkının Korunması, İstanbul, 2021, s. 6.

[28] Personality rights in European tort law / [edited by] Gert Brüggemeier, Aurelia Colombi Ciacchi and Patrick O’Callaghan., Cambridge University Press, 2010, p.572.

[29] Oğuzman/Seliçi/Özdemir-Oktay, Kişiler Hukuku, s.172.

[30] İsveçrə doktrinasında ifadə edilən akademik fikrə görə, şəxsiyyəthüququnun vərəsəlik qaydasında keçməsi o zaman mümkündür ki, vəfat etmiş şəxsin şəxsiyyəthüququnun pozulması onun yaxınının da qeyri əmlak hüququnun pozulmasına səbəb olsun. Məsələn, şəxsin balkondan yıxılaraq öldüyü xəbərini verən medianın eyni zamanda bu xəbərin içində əvvəlki illərdə dənizə çılpaq girmə şəkillərini də paylaşması, ölən şəxsin ailəsinin şəxsiyyəthüquqlarının pozulması olaraq qiymətləndirilmişdir. Bax: *Supra* qeyd 11, paraqraf 573.

bilər (daha ətraflı bax Konsepsiya sənədinin 4.1.21-ci bəndinə). Qeyd edilməlidir ki, şəxsiyyət hüquqları pozulmuş şəxsin vəfat etdiyi üçün onun yaxınları tərəfindən pozulmuş hüquqların müdafiəsi üçün məhkəməyə müraciət etməsi faktı, bu hüquqların vərəsəlik qaydasında onlara keçdiyi mənasına gəlmir[31].

4.1.6. Şəxsiyyət hüquqları yalnız fiziki şəxslərə deyil, həmçinin müvafiq hallarda **hüquqi şəxslərə də aid ola bilər**. Hüquqi şəxsin şəxsiyyət hüquqlarına sahib ola biləcəyinin hüquqi əsasını MM-nin 43.1-ci maddəsi (hüquqi şəxslərin hüquq qabiliyyəti) təşkil edir. Belə ki, həmin maddəyə əsasən hüquqi şəxsi səciyyələndirən hallardan biri kimi onun "şəxsi şəxsiyyət hüquqları əldə etmək və həyata keçirmək" imkanına malik olması göstərilmişdir. Şəxsiyyət hüquqlarına malik olmaq imkanın mövcudluğu, hüquqi şəxslərin təsisçilərindən və ya iştirakçılarından asılı olmayaraq, onların müstəqil hüquq subyekti kimi mülki hüquq münasibətlərində iştirak edə bilməsi üçün zəruridir[32] (məsələn, hüquqi şəxs ad hüququna malik olmazsa, onun öz adından mülki-hüquqi münasibətlərdə iştirak etməsi ümumiyyətlə mümkünsüz olacaqdır.).

Qeyd ediməlidir ki, **hüquqi və fiziki şəxslər arasında mövcud təbii fərqliliklər nəzərə alınaraq** onların hüquq qabiliyyəti arasında məzmun baxımından bəzi fərqlər vardır. Belə ki, bəzi şəxsiyyət hüquqlarına ancaq fiziki şəxslər (məsələn, evlənmə, bədən toxunulmazlığı, sağlamlığın qorunması və s.), bəzilərinə isə həm fiziki şəxslər, həm də hüquqi şəxslər (ad hüququ, olduğu yeri seçmək azadlığı, işgüzar nüfuzun qorunması hüququ, mənsubiyyət hüququ[33] və s.) aid ola bilər.

Fiziki şəxslərlə yanaşı hüquqi şəxslərin də şəxsiyyət hüquqlarının tanınması və qorunması xarici ölkələrin qanunvericiliyində də öz əksini tapır.[34]

4.1.7. Həmçinin, nəzərə alınmalıdır ki, təklif edilən 23-1.1-ci maddənin mətnində sadalanan əsas şəxsiyyət hüquqlarının sırasında həmçinin bəzi **yeni hüquqlar** (Azərbaycan hüquq doktrinasında geniş müzakirə olunmamış hüquqlar) da təsbit edilmişdir: (i) bədən toxunulmazlığı hüququ və (ii) unudulmaq hüququ.

4.1.8. **Bədən toxunulmazlığı hüququ** *(Right to physical integrity)***.** Qeyd edilməlidir ki, hüquq elmində artıq uzun müddətdir ki, formalaşmış fikrə əsasən insanın bədənini təşkil edən hər orqan, üzv və ya toxuma üzərində həmin insanın şəxsiyyət hüquqları mövcuddur[35]. Bədənin hər hansı bir toxumasına üçüncü şəxslər tərəfindən edilən müdaxilə, həyat üçün təhlükəli olub-olmamasından asılı olmayaraq, ümumi qaydaya görə şəxsiyyət hüquqlarının pozulması sayılır. Bu baxımdan, bədən toxunulmazlığı yaşamaq hüququnun davamı kimi

---

[31] *Supra* qeyd 11, s. 173.

[32] *Supra* qeyd 11, s. 299-300.

[33] Fiziki şəxslərdə olduğu kimi hüquqi şəxslərin də mənsubiyyəti (vətəndaşlığı) vardır. Hüquqi şəxsin mənsubiyyəti MM-nin 51-ci maddəsindən yola çıxaraq onun olduğu yerin aid olduğu dövlətə görə müəyyənləşdirilir. Oğuzman/Seliçi/Özdemir-Oktay, Kişiler Hukuku, s.306.

[34] Məsələn, bax Almaniya Federativ Respublikasının Əsas Qanununun (Konstitusiyasının) 19(3) maddəsinə: "*The fundamental rights shall also apply to domestic legal persons to the extent that the nature of such rights permits.*"

[35] Zevkliler, Aydın, Medeni Hukuk Giriş ve Başlangıç Hükümleri, Kişiler Hukuku, Aile Hukuku, İstanbul, Savaş Yayınları, 1992. s. 4.

qəbul edilir[36]. Həmçinin qeyd etmək lazımdır ki sözügedən hüququn konstitusion əsasını konstitusiyanın 46-cı maddəsinin III hissəsi təşkil edir[37].

*Avropa İnsan Hüquqları Məhkəməsi* bədən toxunulmazlığı hüququnu Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsinin (Şəxsi və ailə həyatına hörmət hüququ) çərçivəsinə daxil olan hüquq kimi qiymətləndirir[38]. Məhkəmənin mövqeyinə əsasən, şəxsin bədən toxunulmazlığına istənilən müdaxilə yalnız qanun əsasında və şəxsin razılığı ilə həyata keçirilə bilər.[39]

4.1.9. **Unudulmaq hüququ** *(Right to be forgotten, Recht auf vergessenwerden).* Qeyd etmək lazımdır ki, Qədim Roma dövründə belə bir çox filosofların, o cümlədən Siseronun əsərlərində keçmişin yaddaşlarda saxlanması və onun unudulmasının əhəmiyyəti ilə bağlı fəlsəfi müzakirələrə rast gəlinir.[40] Müasir dövrdə isə internet kimi qlobal elektron rabitə vasitələri zaman və məkan məhdudiyyəti olmadan müxtəlif subyektlərə ayrı-ayrı şəxslər haqqında fərdi məlumatları toplamaq və istifadə etmək (yaymaq, emal etmək, saxlamaq və s.) üçün çoxsaylı imkanlar yaradır[41]. Belə olan halda, müvafiq fərdi məlumat subyekti üçün "unudulmaq hüququnun"[42] tanınması və dövlət tərəfindən təmin edilməsi xüsusi əhəmiyyət daşıyır.[43] Bu hüquq, şəxsin müəyyən bir müddətdən sonra ictimaiyyətə açıq fərdi məlumatlarının silinməsini və ya gizlədilməsini tələb etmək hüququnu nəzərdə tutur. Unudulmaq hüququnun tətbiqi, mediada və xüsusilə də internetdə yayılan məlumatların insanların şəxsi və sosial həyatlarına əsassız mənfi təsir göstərməsindən qoruyur.

Unudulmaq hüququn dəqiq məzmunu ilə bağlı hüquq doktrinasında müxtəlif mövqelər olsa da, bu hüquq əsasən "məlumat subyekti tərəfindən ona aid fərdi məlumatın həmin

---

[36] Helvacı, Serap, Gerçek Kişiler, 7.Basım, İstanbul, Legal Yayınları, 2017, s. 19.

[37] *"Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz."*

[38] CASE OF Y.F. v. TURKEY *(Application no. 24209/94)* §44 (onlayn: 07.10.2024: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-61247%22]}

[39] *Supra* qeyd 18, § 43.

[40] Felix Stumpf, Das Recht auf Vergessenwerden, Baden-Baden 2017, s. 21; Marcus Tullius Cicero (e.ə. 106-43) "De Finibus Bonorum et Malarum" adlı əsərində Simonides və ya başqalarının Themistoklesə yaddaş sənətini öyrətməyi təklif etdiyini qeyd edir. Lakin Themistokles yaddaş sənəti əvəzinə unutmaq sənətinə üstünlük verdiyini söyləmişdir: "Çünki xatırlayıram, hətta xatırlamaq istəmədiyim şeyləri də, amma unutmaq istədiyim şeyləri unuda bilmirəm." H. Harris Rackham, Cicero: De Finibus Bonorum et Malorum, 2. ed, London 1931, s. 197.

[41] Kazım Özkan Ertürk/ Işıl Horzum Taylor, "The Perception of Communication Concluded by Globalisation: Global Village", NÜİİBFD, 2015, C. 8, S. 1, s. 89-98, xüsusilə s. 91.

[42] Əvvəllər fəlsəfi və sosioloji kontekstdə müzakirə olunan unudulma ehtiyacı, son illərdə hüquq elmində "unudulmaq hüququ" *(Right to be Forgotten, Recht auf Vergessenwerden, Droit à l'oubli)*" kimi formalaşmışdır. İlk dəfə bu termin ("*Right to be Forgotten*") 1989-cu ildə David H. Flaherty tərəfindən istifadə olunmuşdur. *Supra,* qeyd 21.

[43] Avropa Ədalət Məhkəməsinin 2014-cü ildə qəbul etdiyi Google-İspaniya qərarı "unudulmaq hüququn" inkişafına mühüm töhfə vermişdir (onlayn:02.09.2024: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=CELEX:62012CJ0131):

məlumatın operatorlarından[44], o cümlədən onlayn rəqəmsal platformalardan silinməsini tələb etmək hüququ” kimi başa düşülür.[45]

Qeyd edilməlidir ki, “unudulmaq hüququnun” təmini mexanizmləri Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə də müəyyən edilir. Belə ki, “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun 7.1.5-ci maddəsində fərdi məlumat subyektinin informasiya sistemində özü barəsində toplanılmış və işlənilən fərdi məlumatların qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, *məhv edilməsini tələb etmək* hüququ nəzərdə tutulmuşdur.

*Avropa İnsan Hüquqları Məhkəməsi* unudulma hüququnu Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi (Şəxsi və ailə həyatına hörmət hüququ) çərçivəsində tanıyır[46]. Məhkəmə izah etmişdir ki, unudulma hüququ şəxsin hazırkı vəziyyətinə mənfi təsir göstərən keçmiş məlumatların silinməsi, dəyişdirilməsi və ya onlara çıxışın məhdudlaşdırılmasına dair həmin şəxsin marağına söykənir.[47] Belə neqativ məlumatların ləğv edilməsini tələb edən şəxslər, müxtəlif münasibətlər daxilində (məsələn, iş axtararkən və ya biznes münasibətlərində) özlərinin keçmiş hərəkətləri və ya publik çıxışları ilə ömürlük üz-üzə qalmaq istəmirlər[48]. Məhkəmə həmçinin unudulma hüququnun onlayn aspektinə *(“right to be forgotten online”)* də toxunaraq, internetdə şəbəkəsində mövcud olan məlumatların silinməsi, dəyişdirilməsi və ya onlara çıxışın məhdudlaşdırılmasına dair media subyektlərinə və ya onlayn axtarış cihazlarının operatorlarına qarşı tələblərin[49] bu hüquqla əhatə edildiyini qeyd etmiş və Konvensiyanın 8-ci maddəsi ilə qorunan şəxsi həyata hörmət hüququ çərçivəsində qiymətləndirmişdir[50].

*23-1.2-ci maddə üzrə*

*(a) “Müdaxilə” və “pozuntu” anlayışlarına dair*

---

[44] “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun 2.1.10-cu maddəsinə əsasən, “**fərdi məlumatların operatoru”** dedikdə - fərdi məlumatların toplanılmasını, işlənilməsini və mühafizəsini həyata keçirən fərdi məlumatların mülkiyyətçisi və ya onun bu funksiyaları müəyyən həcmdə və şərtlərlə həvalə etdiyi dövlət və ya yerli özünüidarə orqanı, hüquqi və ya fiziki şəxs başa düşülür.

[45] Federico Fabbrini and Edoardo Celeste, The Right to Be Forgotten in the Digital Age: The Challenges of Data Protection Beyond Borders, German Law Journal (2020), 21, pp. 56.

[46] CASE OF HURBAIN v. BELGIUM *(Application no. 57292/16)*, §194, 199 *onlayn:02.11.2024:*

https://hudoc.echr.coe.int/#{%22itemid%22:[%22001-225814%22]}

[47] *Supra qeyd 26,* §191.

[48] *İbid.*

[49] Məhkəmənin mövqeyinə görə belə tələblər müxtəlif formalarda ola bilər, məsələn, onlayn arxivlərdən qəzet məqaləsinin silinməsi və ya dəyişdirilməsi və ya de-indeksasiya aparımaqla belə məqaləyə çıxışın məhdudlaşdırılması. (*Supra*, qeyd 26, §199).

[50] *Supra* qeyd 26, §195, 199.

4.1.10. İlk növbədə hesab edirik ki, təklif olunan 23-1.2-ci maddənin mətnində istifadə edilən “müdaxilə” və “pozuntu” terminlərin mənasına aydınlıq gətirilməlidir. Bununla bağlı qeyd edilir ki, şəxsiyyət hüquqlarına “müdaxilə” dedikdə şəxsin şəxsiyyət hüququna toxunan hər hansı hərəkət və ya hərəkətsizlik nəzərdə tutulur. Belə müdaxilə qanuni və ya qanunsuz ola bilər. Yalnız qanunsuz müdaxilə şəxsin şəxsiyyət hüququnun pozulmasına səbəb ola bilər. Təklif olunan maddənin mətnində qanunsuz müdaxilə bir qayda olaraq “pozuntu” adlandırlır.

*(b) Şəxsiyyət hüquqlarının pozulması*

4.1.11. Təklif olunan 23-1.2-ci maddəyə əsasən, şəxsiyyət hüquqlarının müdafiəsi Mülki Məcəllə və digər qanunlarla müəyyən edilmiş hallarda və qaydada həyata keçirilir. Şəxsiyyət hüquqlarının müdafiəsi həm **məhkəmə**[51], həm də **məhkəmədən kənar** qaydada (məsələn, pozuntunun aradan qaldırılması barədə yazılı tələbin pozuntunu törətmiş şəxsə göndərilməsi, danışıqların aparılması və s.) həyata keçirilə bilər.

4.1.12. Mülki hüquqların müdafiəsi, bir qayda olaraq, MM-nin 18-ci maddəsində nəzərdə tutulmuş **mülki hüquqların müdafiəsinin ümumi üsulları** ilə həyata keçirilə bilər, əgər həmin üsullardan istifadə pozulmuş şəxsiyyət hüququnun **mahiyyətinə** və pozuntunun **nəticələrinin xarakterinə zidd deyilsə** və pozulmuş hüququn bərpası üçün tələb olunan **zəruri hədləri aşmırsa**. Qeyd edilməlidir ki, əmlak hüquqlarının müdafiəsi zamanı istifadə edilən müdafiə usullarının bir çoxu şəxsiyyət hüquqlarının müdafiəsində də tətbiq edilir. (məsələn, hüququn tanınması, hüququ pozan və ya pozma təhlükəsi olan hərəkətin qarşısının alınması; əqdin etibarsız hesab edilməsi və (və ya) əqdin etibarsızlığı nəticələrinin tətbiq edilməsi və s.) Hüququ pozulmuş şəxs öz seçiminə əsasən bir və ya **bir neçə müdafiə üsulunu seçməkdə sərbəstdir**.

4.1.13. Həmçinin qeyd edilməlidir ki, əmlak hüquqlarının müdafiəsi üçün istifadə oluna bilən **bəzi müdafiə üsulları** şəxsiyyət hüquqlarının mahiyyətinə və onların pozulması zamanı əmələ gələn nəticələrinin xarakterinə uyğun gəlmədiyindən onların müdafiəsi üçün **tətbiq edilə bilməz** (məsələn, öhdəliyin naturada icrası, vindikasiya iddiası və s.). Bununla belə, şəxsiyyət hüquqlarının pozulması həm də maddi zərərlə nəticələnərsə, həmin müdafiə üsullarının tətbiqi mümkündür.

*<u>23-1.3-cü maddə üzrə</u>*

*Müdaxilənin qanuni və ya qanunsuz hesab edildiyi hallar*

4.1.14. MM-nin 23-1.3-cü maddəsi şəxsiyyət hüquqlarına müdaxilənin **mülki məsuliyyətə səbəb olmayacağı halları** təsbit etmişdir. Belə ki, müdaxilə (i) **şəxsin razılığına**, (ii) **xüsusi** və ya (iii) **ictimai mənafeyə,** yaxud (iv) **qanuna əsaslandıqda** hüquq pozuntusu sayılmayacaqdır[52]. Bu baxımdan şəxsiyyət hüquqlarına belə müdaxilə edən şəxs 23-1.5-

---

[51] MM-nin 6.1.9-cu maddəsinə uyğun olaraq, digər mülki hüquqlarla bağlı olduğu kimi, şəxsiyyəthüquqlarının da pozulduğu halda onların müdafiəsi üçün nəzərdən tutulmuş əsas qayda - məhkəmə müdafiəsi qaydasıdır.

[52] Şəxsiyyəthüquqlarına edilmiş müdaxiləyə görə mülki məsuliyyəti istisna edən bu hallara xarici ölkələrin qanunvericiliyində də rast gəlinir (məsələn. Türkiyə Mədəni Qanunun 24-cü maddəsi və İsveçrə Mülki Qanunun $28^{30}$-cu maddəsi).

ci maddədə sadalanan hallardan ən azı birinin mövcud olduğunu sübut etdiyi təqdirdə mülki məsuliyyət daşımayacaqdır. Məsuliyyəti aradan qaldıran halların ayrı-ayrılıqda izah edilməsi məqsədəuyğun hesab edilir.

4.1.15. ***Razılıq.*** Bir sıra hallarda şəxsin şəxsiyyət hüquqlarına müdaxilə məhz şəxsin özünün razılığı ilə baş verir (məsələn, şəxsin müraciəti əsasında onun üzərində tibbi müayinənin keçirilməklə onun bədən toxunulmazlığına müdaxilə edilməsi). Eyni zamanda nəzərə alınmalıdır ki, şəxsiyyət hüquqlarına müdaxilə edəcək və ya zərər vuracaq bəzi növ davranışlara razılıq verilməsi hüquqi cəhətdən mümkün deyildir (məsələn, şəxsin həyatına son qoyulmasına).

Nəzərə alınmalıdır ki, razılıq istənilən vaxt şəxs tərəfindən **geri götürülə bilər**. Lakin geri götürülmə anına qədər razılıq əsasında edilmiş müdaxilə qanunsuz hesab edilmir. Belə yanaşma xarici qanunvericilik təcrübəsinə də uyğundur[53].

4.1.16. **Üstün xüsusi mənafeyə əsaslanma** onu ehtiva edir ki, müdaxilə onun yönəldiyi şəxsiyyət hüququ ilə müqayisədə daha üstün və əhəmiyyətli xüsusi (şəxsi) hüququn qorunması zərurəti ilə törədilmişdir. Məsələn, şəxsin razılığı olmadan onun bədən toxunulmazlığı hüququna müdaxilə həmin şəxsin həyatının xilas edilməsi zərurəti ilə edildiyi halda, müvafiq müdaxilə daha üstün xüsusi mənafeyə əsaslanmış olmaqla qanunsuz hesab edilməyəcəkdir. Müdaxilənin əsaslandığı xüsusi mənafe həm hüquqlarına müdaxilə edilən şəxsə, həm müdaxilə edən şəxsə, həm də üçüncü şəxsə aid ola bilər.

4.1.17. **Üstün ictimai mənafeyə əsaslanma** halında isə müdaxilə konkret şəxslərin mənafeyinin qorunması üçün deyil, dövlətin və (və ya) cəmiyyətin üstün maraqlarının qorunması zərurəti ilə edilir[54]. Məsələn, yoluxucu xəstəliyin insanlar arasında yayılmasının qarşısının alınması məqsədilə yoluxmuş şəxsə münasibətdə karantin tədbirlərini tətbiq etməklə onun sərbəst hərəkət etmək azadlığının məhdudlaşdırılması.

4.1.18. **Qanuna əsaslanma** onu nəzərdə tutur ki, müəyyən hallarda şəxsiyyət hüquqlarının müdaxiləsinə qanunla yol verilir və bu halda müvafiq müdaxilə qanuni hesab edilməklə müdaxilə etmiş şəxsin məsuliyyətinə səbəb olmur. Belə qanuni əsaslara misal olaraq MM-nin 563 və 564-cü maddəsində təsbit edilən zəruri müdafiə və son zərurət halları göstərilə bilər.

*23-1.4-cü maddə üzrə*

4.1.19. Təklif edilən 23-1.4-cü maddəsinə əsasən, qanunla nəzərdə tutulmuş hallarda və ya hüquqları pozulmuş şəxsin mənafeləri tələb etdikdə şəxsiyyət hüquqlarının həmçinin aşağıdakı **xüsusi üsullarla** da müdafiəsinə yol verilə bilər:

---

[53] Məsələn, bax Avropa İttifaqının "Ümumi Məlumatların Qorunması Qaydaları"nın *(GDPR)* 7.3-cü maddəsinə.

[54] Burada "ictimai mənafe" ifadəsi ilk növbədə razılığın tələb olunmamasının qanunun tələbindən irəli gəldiyi halları əhatə edir. Həmçinin, hesab edirik ki, qeyd olunan ifadə təfsir edilərkən Avropa İnsan Hüquqları Konvensiyasının 8.2-ci maddəsində təsbit edilən "milli təhlükəsizlik", "ictimai asayiş", "ölkənin iqtisadi rifah maraqları", "iğtişaşın və ya cinayətin qarşısının alınması", "sağlamlığın qorunması", "əxlaqın qorunması" və 'digər şəxslərin hüquq və azadlıqlarının müdafiə edilməsi" əsaslarından irəli gələn dövlətin və cəmiyyətin maraqları nəzərə alınmalıdır.

(i) **Hüququn pozulması faktının məhkəmə tərəfindən tanınması**[55]. Bəzi hallarda pozuntu faktının başa çatmasına baxmayaraq onun neqativ təsirləri davam edə bilər (məsələn, şəxsin şərəf və ləyaqətini ləkələyən məqalə media vasitəsində dərc edildikdən sonra qısa müddət ərzində həmin media vasitəsinin redaksiyası tərəfindən könüllü olaraq silinməsinə baxmayaraq, həmin məqalənin aid olduğu şəxs hesab edə bilər ki, onun barəsində cəmiyyətdə artıq neqativ fikir formalaşıb və bunun təsirləri davam edir). Belə hallarda hüququ pozulmuş şəxs müvafiq hərəkətin (müdaxilənin) qanunsuz olduğunun tanınmasını məhkəmədən tələb edə bilər. Qeyd etmək lazımdır ki, belə iddialar üzrə məhkəmədə iddiaçı qismində şəxsiyyət hüquqları pozulmuş şəxs (fiziki və ya hüquqi şəxs), cavabdeh qismində isə hüquq pozuntusunu törətmiş şəxs və ya onun vərəsələri (hüquqi varisləri) çıxış edə bilər.[56]

(ii) **Hüquq pozuntusu barədə məhkəmə qərarının üçüncü şəxslərə bildirilməsi**[57]. Bəzən hüquqları pozulmuş şəxsin mənafeləri tələb edə bilər ki, onun şəxsiyyət hüququnun pozulması barədə məhkəmə qərarı konkret şəxslərə bildirilsin (çatdırılsın). Məsələn, sosial şəbəkədə yayılan yanlış məlumat şəxsin şəxsi münasibətlərinə zərər vurubsa, o, məhkəmə qərarının həmin münasibətlərə təsir edən konkret şəxs(lər)ə çatdırılmasını tələb edə bilər.

(iii) **Hüquq pozuntusu barədə məhkəmə qərarının mediada dərc edilməsi**[58]. Bəzi hallarda şəxsiyyət hüququnun pozulmasına görə vurulmuş zərərin bərpası üçün məhkəmə qərarının dərc edilməsi mühüm əhəmiyyət daşıya bilər (məsələn, şəxsin şərəf və ləyaqətini pozan yalan məlumatlar cəmiyyətdə geniş yayıldıqda). Məhkəmə qərarında onun mediada dərc edilməsi nəzərdə tutularsa, həmçinin bu dərcin kim tərəfindən, kimin hesabına, harada və hansı şəkildə olması da göstərilməlidir[59]. Sözügedən dərc bir və ya bir neçə media vasitəsində (o cümlədən, hüquq pozuntusunu törədən media vasitəsinin özündə) ola biləcəyi kimi, həmçinin bir jurnal və ya kitabda səhifə, yaxud afişa[60] şəklində, eləcə də ictimai radio və televiziya kanallarında da yayımlana (səsləndirilə) bilər.

---

[55] Sözügedən müdafiə üsulu bir sıra xarici ölkələrin qanunvericiliyi ilə də tanınır. Məsələn, İsveçrə Mülki Məcəlləsinin 28*a*[32]-ci maddəsində, Türkiyə Mülki Qanunun 25-ci maddəsində, Rusiya Mülki Məcəlləsinin 150-ci maddəsinin 2-ci bəndi.

[56] *Supra* qeyd 11, s. 264.

[57] Sözügedən müdafiə üsulu bir sıra xarici ölkələrin qanunvericiliyi ilə də tanınır. Məsələn, İsveçrə Mülki Məcəlləsinin 28*a*[32]-ci maddəsində, Türkiyə Mülki Qanunun 25-ci maddəsində, Rusiya Mülki Məcəlləsinin 150-ci maddəsinin 2-ci bəndi.

[58] Sözügedən müdafiə üsulu bir sıra xarici ölkələrin qanunvericiliyi ilə də tanınır. Məsələn, İsveçrə Mülki Məcəlləsinin 28*a*[32]-ci maddəsində, Türkiyə Mülki Qanunun 25-ci maddəsində.

[59] *Supra* qeyd 11, s. 266.

[60] Bir seçki zamanı namizəd haqqında yayımlanan xəbərin həqiqəti əks etdirmədiyi haqqında məhkəmə qərarının afişa şəklində ictimaiyyətə çatdırılması mümkün ola bilər. *Supra* qeyd 11, s. 266, istinad. 900.

(iv) **Pozuntuya səbəb olmuş həqiqətə uyğun olmayan məlumatların təkzib edilməsi, düzəliş verilməsi və ya cavab verilməsi.** Bu müdafiə üsulları və onların həyata keçirilmə qaydası qüvvədə olan "Media haqqında" Qanunun 18-ci və 19-cu maddələrində öz əksini tapmışdır.

*23-1.5-ci maddə üzrə*

4.1.20. Təklif edilən 23-1.5-ci maddəyə görə, şəxs şəxsiyyət hüquqlarının pozulması zamanı öz hüquqlarının müdafiəsi (məsələn, pozuntunun qarşısının alınması ilə bağlı məhkəmədə iddianın verilməsi) ilə yanaşı, həmçinin ona vurulmuş **maddi** və **mənəvi zərərin kompensasiyasını**[61] tələb edə, habelə zərər vuranın pozuntu nəticəsində əldə etmiş olduğu gəliri də (maddi və mənəvi zərərin ödənilməsi tələbi ilə əhatə edilməyən hissədə) **əsassız varlanma** qaydalarına uyğun olaraq geri tələb edə bilər. Bu müddəa, hüquq pozuntusu nəticəsində pozuntu törətmiş şəxs tərəfindən əldə edilmiş hər hansı maddi faydanın onda saxlanmasının qarşısını almaq və zərər çəkmiş şəxsin maraqlarını qorumaq məqsədi daşıyır.

*23-1.6-cı maddə üzrə*

4.1.21. Şəxsiyyət hüquqları şəxsiyyətə bağlı hüquqlar olduğundan, bir qayda olaraq onların müdafiəsi yalnız həmin şəxsin özü tərəfindən həyata keçirilir və bu hüquqlar vərəsəlik qaydasında ötürülmür. Bununla belə, qanunla nəzərdə tutulmuş hallarda ölmüş şəxsin pozulmuş şəxsiyyət hüquqları digər şəxslər tərəfindən müdafiə edilə bilər (məsələn, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun 29-cu maddəsi). Burada digər şəxslər qismində, bir qayda olaraq, ölmüş şəxsin vərəsələri, ailə üzvləri, qohumları və başqa maraqlı şəxslər (məsələn, şərik müəlliflər)[62] çıxış edirlər.

### 4.2. Maddə 23-2. Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi *(təklif olunan redaksiya)*

**"Maddə 23-2. Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi**

23-2.1. Fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktiki məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir. Maraqlı şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir.

23-2.2. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar mediada yayılmışdırsa, həmin mediada da təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və ya ləğv edilməli və bu barədə maraqlı şəxslərə məlumat verilməlidir.

---

[61] Konsepsiya ilə mənəvi zərər yalnız fiziki şəxslər üçün tanındığından, hüquqi şəxslərin mənəvi zərərə görə kompensasiya tələb etmək hüququ nəzərdə tutulmayıb.

[62] Əsədov H. Bağır /Vəliyev, Ə.İbrahim/ Hacıbəyli B. Hacıbəyli, AR MM-nin Elmi Praktik-Praktik Kommentariyası, Hüquq yayın evi, 2017, s. 103

23-2.3. Fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayıldıqdan sonra internet şəbəkəsində mövcud olduqda şəxs müvafiq məlumatın silinməsini, habelə göstərilən məlumatların internet şəbəkəsinin istifadəçilərinə təkzibin çatdırılmasını təmin edəcək üsulla təkzib olunmasını tələb edə bilər.

23-2.4. Fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatların təkzib edilməsi qaydası qanunun tələbləri və işin halları nəzərə almaqla məhkəmə qərarında müəyyənləşdirilir.

23-2.5. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi, cavabının dərc edilməsi (yayımlanması), habelə digər hüquqi müdafiə üsullarından istifadə etməklə yanaşı, məlumatların yayılması nəticəsində vurulmuş maddi və mənəvi zərərə görə kompensasiya tələb etmək hüququ vardır.

23-2.6. Mediada hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş (yayımlanmış) fiziki şəxsin həmin mediada öz cavabının dərc edilməsi (yayımlanması) hüququ vardır.

23-2.7. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxs məhkəmə qaydasında həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb edə bilər.

23-2.8. Bu maddədə müəyyən edilmiş qaydalar məhkəmələr tərəfindən həmçinin fiziki şəxs barəsində həqiqətə uyğun olmayan istənilən məlumatın yayılması halında da tətbiq edilə bilər, bu şərtlə ki, barəsində belə məlumatlar yayılmış fiziki şəxs onların həqiqətə uyğun olmadığını sübuta yetirsin.

23-2.9. Mənəvi zərərə görə kompensasiyanın ödənilməsi istisna olmaqla, bu maddədə müəyyən edilmiş qaydalar hüquqi şəxslərin işgüzar nüfuzunun müdafiəsinə də (belə müdafiənin xarakterinə və mahiyyətinə uyğun gələn dərəcədə) tətbiq edilir.”

*23-2-ci maddə üzrə ümumi qeydlər*

4.2.1. Təklif olunan 23-2-ci maddə Mülki Məcəllənin hazırkı redaksiyasının 23-cü maddəsində təsbit edilən normalar nəzərə alınmaqla tərtib edilmişdir.

4.2.2. Təklif olunan maddədəki başqa bir ümumi dəyişiklik onunla bağlıdır ki, MM-nin 23.1-ci maddəsində fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlarla yanaşı, onun **şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatlar**ın da məhkəmə qaydasında təkzib olunmasını tələb etmək hüququ göstərilmişdir. Həmçinin, bu hüququn təmini də həmin məlumatların həqiqətə uyğun olduğunun sübuta yetirilməməsi ilə şərtləndirilmişdir. Halbuki, şəxsi və ailə həyatının sirləri, şəxsi və ailə həyatının toxunulmazlığı Konstitusiya ilə qorunur (Konstitusiyanın 32-ci maddəsinin II hissəsi). Yəni, şəxsi və ailə həyatının sirlərini, habelə şəxsi və ailə həyatının toxunulmazlığını pozan məlumatlar həqiqət olsa belə, onların yayılması yolverilməzdir. Bu baxımdan təklif olunan 23-2-ci maddənin mətnindən “şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların” yayılması ilə bağlı hissələrin çıxarılması və “Şəxsiyyət hüquqları” fəslində şəxsi və ailə həyatına hörmət hüququ ilə bağlı ayrıca 23-4-cü maddədə təsbit edilməsi məqsədəuyğun hesab edilir.

4.2.3. Nəzərə alınmalıdır ki, şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi şəxsin əsas şəxsiyyət hüquqlarından birini təşkil edir və bu baxımdan 23-2-ci maddə 23-1-ci maddəyə münasibətdə **xüsusi norma** kimi çıxış edir. Sonuncu maddənin müddəaları şərəfin, ləyaqətin və ya işgüzar nüfuzun müdafiəsi ilə bağlı münasibətlərə **subsidiar şəkildə** tətbiq edilir.

*23-2.1-ci maddə üzrə*

4.2.4. Təklif olunan 23-2.1-ci maddədə (qüvvədə olan 23.1-ci maddədə olduğu kimi) fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatların həqiqiliyinin sübut edilməsi ilə əlaqədar, yayılmış məlumatların "**qiymətləndirici mülahizə**" və ya "**fakt**" olmasından asılı olaraq fərqləndirilməsi nəzərə alınmalıdır. Belə ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir sıra qərarlarında[63] formalaşdırdığı və Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən də qəbul olunaraq tətbiq edilən mövqeyə görə, məlumatlar əgər "fakt" deyil, "qiymətləndirici mülahizə" olarsa onların həqiqiliyini sübut etmək tələb oluna bilməz. Qiymətləndirici mülahizələrin həqiqiliyini sübut etmək tələbini yerinə yetirmək qeyri-mümkündür və belə tələb öz-özlüyündə 10-cu maddə ilə təsbit edilmiş hüququn (yəni, ifadə azadlığı hüququnun) fundamental tərkib hissəsi olan fikir azadlığını pozur." Həmin yanaşma Azərbaycan Respublikasının Ali Məhkəməsi[64] tərəfindən də qəbul edilmişdir.

Faktlar və qiymətləndirici mülahizələrin fərqinə gəldikdə isə qeyd edilməlidir ki, onların fərqləndirilməsi heç də həmişə asan olmur. Faktlara misal olaraq, ər tərəfindən arvadının ona xəyanət etməsi barədə məlumatı yaymasını göstərmək olar[65]. Teatr tənqidçisinin hər hansı bir aktrisa haqqında onun performansının pis olmasına görə səhnəyə deyil, restoranda kassada oturmağa layiq olduğunu bildirməsi isə fakt deyil, qiymətləndirici malahizədir[66]. Bir sıra xarici ölkələrin (Macarıstan, İspaniya, İtaliya, Almaniya, Avstriya və s.) qanunvericiliyində və məhkəmə praktikasında faktlar və qiymətləndirici mülahizələrin fərqləndirilməsi müşahidə edilir[67].

4.2.5. Həmçinin qeyd edilməsi zəruridir ki, təklif olunan 23-2.1-ci maddədə nəzərdə tutulmuş *şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar* yalnız söz və yazı formasında deyil, **müxtəlif digər formalarda da** (jest, şəkil, cizgi və kinofilmləri, musiqi əsəri və s.) ola bilər[68].

---

[63] Məsələn, bax. "CASE OF DICHAND AND OTHERS v. AUSTRIA *(Application no. 29271/95)*, § 42, (onlayn:14.10.2024: https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-60171%22]} )

[64] Bax. Ali Məhkəməsi Plenumunun "Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" 21 fevral 2014-cü il tarixli Qərarının 6-cı bəndi, Ali Məhkəmənin Mülki Kollegiyasının 11.12.2018-ci il tarixli 2(102)-7907/2018 nömrəli Qərarının 4-cü səhifəsinin 4-cü paraqrafı

[65] Bax Avropa Xüsusi Hüququnun Model Qaydalarının VI.–2:204-ci maddəsi ilə bağlı kommentariyasının "C" bəndinin birinci abzasına (misal 1) https://www.law.kuleuven.be/personal/mstorme/european-private-law_en.pdf

[66] Bax Avropa Xüsusi Hüququnun Model Qaydalarının VI.–2:204-ci maddəsi ilə bağlı kommentariyasının "C" bəndinin birinci abzasına (misal 2) https://www.law.kuleuven.be/personal/mstorme/european-private-law_en.pdf

[67] Bax Avropa Xüsusi Hüququnun Model Qaydalarının VI.–2:204-ci maddəsi ilə bağlı qeydlərin II bölməsi https://www.law.kuleuven.be/personal/mstorme/european-private-law_en.pdf

[68] *Supra* qeyd 11, s. 190.

4.2.6. Təklif olunan 23-2.1-ci maddənin ikinci cümləsinə əsasən, şəxs barəsində dərc edilən məlumatlar həqiqəti əks etdirməyindən asılı olmayaraq **natamam dərc edilmişsə** və bu səbəbdən şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyirsə, zərərçəkən müvafiq müdafiə üsulundan istifadə edərək öz şəxsiyyət hüququnun qorunmasını həyata keçirə bilər.

4.2.7. Təklif olunan 23-2.1-ci maddənin sonuncu cümləsinə əsasən "Maraqlı şəxslərin tələbi ilə fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunun müdafiəsinə onun **ölümündən sonra** da yol verilir." Burada "**maraqlı şəxs**" qismində ölmüş şəxsin ailə üzvləri, vərəsələri, qohumları, dostları və başqa maraqlı subyektlər (məsələn, şərik müəlliflər) çıxış edə bilər[69].

4.2.8. Həmçinin, nəzərə alınmalıdır ki, şəxsi cəmiyyət içində nüfuzdan salan, lakin **həqiqətə uyğun olan məlumatların** (məsələn, cinsi xəstəlik daşıması barədə məlumatın) yayılması halları sözügedən maddənin tətbiq dairəsinə düşmür. Bu kimi hallar təklif edilən 23-2.4-cü maddə ilə nəzərdə tutulmuş şəxsi və ailə həyatının toxunulmazlığı hüququ çərçivəsində baxıla bilər[70].

*23-2.2-ci maddə üzrə*

4.2.9. Təklif edilən 23-2.2-ci maddənin mətni bu Konsepsiya sənədinin 4.2.2-ci bəndi nəzərə alınmaqla, Mülki Məcəllənin hazırkı redaksiyasının 23.2-ci maddəsinin birinci və ikinci cümlələri əsasında hazırlanmışdır.

4.2.10. Şərh edilən maddəyə görə əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar mediada yayılmışdırsa, həmin mediada da təkzib[71] edilməlidir. Bu **məlumatların təkzibi qaydası** (təkzibin mətni, dərc edilməsi və s.) "Media haqqında" Qanunun 18-19-cu maddələri ilə müəyyən edilmişdir.

*23-2.3-cü maddə üzrə*

4.2.11. Təklif edilən 23-2.3-cü maddəyə əsasən, fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayıldıqdan sonra internet şəbəkəsində mövcud olduqda şəxs müvafiq məlumatın silinməsini, habelə göstərilən məlumatların internet şəbəkəsinin istifadəçilərinə təkzibin çatdırılmasını təmin edəcək üsulla təkzib olunmasını tələb edə

[69] *Supra* qeyd 42, s. 104.

[70] *Supra* qeyd 8, s. 495.

[71] Təkzib şərəfin, ləyaqətin və ya işgüzar nüfuzun qorunması üçün xüsusi müdafiə üsullarından biridir və, bir qayda olaraq, hüquq pozuntusuna yol açan davranışın dayandırılması, habelə hüquq pozuntusundan əvvəlki vəziyyətin bərpa edilməsini təmin edir. Təkzib məhkəmədən kənar və məhkəmə qaydasında həyata keçirilə bilər. Bax *Supra,* qeyd 8, s. 498.

bilər.[72] Məsələn, bir şəxs haqqında onun qanunsuz fəaliyyətlə məşğul olduğu barədə internetdə yalan məlumat yayılarsa, həmin şəxs bu məlumatların silinməsini və eyni zamanda, həmin məlumatın yanlış olduğunu bildirən təkzibin yayımlanmasını tələb edə bilər.

*23-2.4-cü maddə üzrə*

4.2.12. Təklif edilən 23-2.4-cü maddə Mülki Məcəllənin hazırkı redaksiyasının 23.2-ci maddəsinin sonuncu cümləsinin tələbi nəzərə alınmaqla tərtib edilmişdir. Maddəyə əsasən, məhkəmə şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatların təkzib edilməsi barədə qərar qəbul etdikdə, bu qərarda həmçinin uyğun təkzibetmə qaydasını da müəyyən etməlidir. Təkzibetmə qaydasını müəyyən edərkən məhkəmə qanunun[73] və işin müvafiq hallarını nəzərə almalıdır[74].

*23-2.5-ci maddə üzrə*

4.2.13. Təklif edilən 23-2.7-ci maddəyə əsasən, barəsində ləkələyici məlumatlar yayılmış şəxs uyğun hesab etdiyi hüquqi müdafiə üsullarından istifadə etməklə yanaşı, həmçinin bu cür məlumatların yayılması nəticəsində vurulmuş **maddi və mənəvi zərərin əvəzinin** də ödənilməsini tələb etmək hüququna malikdir. Bu norma Mülki Məcəllənin hazırkı redaksiyasının 23.4-cü maddəsinə əsasən tərtib edilmişdir. Qüvvədə olan redaksiyadan əsas fərq ondan ibarətdir ki, təklif olunan mətndə **(i)** yalnız "təkzib etmə hüququ" deyil digər hüquqi müdafiə vasitələri ilə yanaşı da zərərin kompensasiyası imkanı təsbit edilmiş, həmçinin **(ii)** "zərər" termininin məzmunu dəqiqləşdirilərək sözügedən norma ilə həm maddi həm də mənəvi zərərin əhatə olunduğu müəyyən edilmişdir[75].

*23-2.6-cı maddə üzrə*

---

[72] Sözügedən normanın hüquqi əsasını, Konstitusiyanın 32-ci maddəsinin V hissəsi təşkil edir: "Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya *çıxarılmasını (ləğv edilməsini)* tələb etmək hüququ vardır."

[73] Məsələn, "Media haqqında" Qanunun 19-cu maddəsi.

[74] Təkzibetmə qaydası ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1999-cu il 14 may tarixli 4 nömrəli Qərarının 12-ci bəndində qeyd edilmişdir ki, şərəf və ləyaqətin müdafiəsi haqqında iddia təmin edildikdə məhkəmə Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 200-cü maddəsinə müvafiq olaraq qətnamənin qərar hissəsində həqiqi məlumatın nədən ibarət olmasını, hansı məlumatın təkzib edildiyini, məlumatın təkzib edilmə üsulunu (kütləvi informasiya vasitəsində məlumat vermək, həqiqətə uyğun olmayan sənədi dəyişmək, ictimaiyyət qarşısında üzr istəmək və s.) və qaydasını, zəruri olan hallarda isə təkzibin mətnini, qətnamənin icra müddətini göstərməlidir. Həqiqətə uyğun olmayan məlumatın təkzib edilməsi üsulu həmin məlumatların yayılması üsuluna uyğun olmalıdır (14.05.1999 tarixli, AR Ali Məhkəməsinin Plenumu 4 nömrəli Qərarının 12-ci bəndi.,(Onlayn:17.07.2024: https://e-qanun.az/framework/17799)).

[75] Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 31.05.2002-ci il tarixli Qərarı ilə dəqiqləşdirilmişdir ki, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsində nəzərdə tutulmuş *zərər* dedikdə şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə bağlı şəxsə dəymiş mənəvi zərər (fiziki və mənəvi iztirablar) və maddi zərər başa düşülür."

4.2.14. Mediada hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş (yayımlanmış) fiziki şəxsin həmin mediada[76] öz **cavabını yayımlamaq hüququ** vardır[77]. Nəzərə alınmalıdır ki, şəxsiyyət hüquqlarının pozulması zamanı zərərçəkən şəxsin cavab vermək hüququ həmçinin yuxarıda qeyd edilmiş 23-1.3-cü maddədə də şəxsiyyət hüquqlarının ayrıca müdafiə üsulu kimi təsbit edilmişdir. Həmin maddəyə əsasən, cavab hüququ o halda təmin edilir ki, məhkəmə şəxsin şəxsiyyət hüquqlarının *hər hansı vasitə* ilə pozulduğunu müəyyən etsin və *zərərçəkən şəxsin mənafelərinin müdafiəsi* üçün cavab hüququnun zəruri olduğu qənaətinə gəlsin. Bundan fərqli olaraq, 23-2.6-cı maddə üzrə cavab hüququ - pozulmasından asılı olmayaraq, *mediada* şəxsin *istənilən hüququna və ya mənafeyinə toxunan* məlumatın dərc olunması hallarında zərərçəkənin tələbi ilə məhkəmə tərəfindən *hər bir halda təmin edilməlidir*.

*23-2.7-ci maddə üzrə*

4.2.15. Qeyd olunan norma Mülki Məcəllənin hazırkı redaksiyasının 23.5-ci maddəsindəki qaydanı təkrarlayır. Şərəfi, ləyaqəti və ya işgüzar nüfuzu ləkələyən məlumatların kim tərəfindən yayıldığı müəyyənləşdirilə bilmədikdə, yəni **şərəfi, ləyaqəti və ya işgüzar nüfuzu ləkələyən anonim məlumatlar yayıldıqda** (məsələn, həqiqi adını gizli saxlayan şəxs tərəfindən internet sosial şəbəkəsində həqiqətə uyğun olmayan məlumatlar yayıldıqda) barəsində bu cür məlumatlar yayılan şəxs həmin məlumatların həqiqətə uyğun olmayan sayılmasını məhkəmədən tələb etmək hüququna malikdir.

*23-2.8-ci maddə üzrə*

4.2.16. Təklif olunan 23-2.8-ci maddə şəxs barəsində həqiqətə uyğun olmayan, lakin onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələməyən məlumatların yayıldığı hallarda tətbiq olunur və 23.2-ci maddədəki qaydaların belə hallara da şamil edilə biləcəyini nəzərdə tutur. 23-2.1-ci maddədən fərqli olaraq, 23-2.8-ci maddədəki qaydada məlumatların həqiqiliyini sübuta yetirmək vəzifəsi məlumatı yaymış şəxsin üzərində deyil, məlumatların həqiqətə uyğun olmadığını iddia edən fiziki şəxsin üzərinə düşür. Qeyd edək ki, 23-2.8-ci maddənin hüquqi əsasını isə Konstitusiyanın 32-ci maddəsinin V hissəsi təşkil edir[78].

*23-2.9-cu maddə üzrə*

---

[76] Qeyd edilməlidir ki, mübahisə müddəti ərzində haqqında ləkələyici məlumatlar yayılmış şəxs başqa bir mediada öz cavabını yayımlaya bilər. Bax: *Supra* qeyd 8, s. 497-98.

[77] Məsələn, bir xəbər portalı bir dövlət məmurunun qərarları və ya fəaliyyəti ilə bağlı tənqidi məqalə yayımlayıbsa, bu məqalə həmin məmurun hüquqlarına və ya mənafelərinə toxuna bilər. Bu halda dövlət məmuru cavab hüququndan istifadə edərək öz mövqeyini açıqlamaq və yayılan məlumatlara qarşı öz cavabını həmin mediada dərc etdirmək hüququna malikdir.

[78] Qeyd olunan konstitusion normaya əsasən, "*Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.*"

4.2.17. Konstitusiya Məhkəməsi, fiziki şəxslərlə bağlı olaraq, işgüzar nüfuzun ləkələnməsi halında maddi və mənəvi zərərin meydana gələ biləcəyini qeyd etməklə yanaşı, hüquqi şəxslərə münasibətdə isə mənəvi zərərin meydana gəlməsini ümumiyyətlə qəbul etmir[79]. Bu səbəbdən, təklif olunan maddə çərçivəsində hüquqi şəxslərin işgüzar nüfuzunun ləkələnməsi hallarında mənəvi zərərə görə kompensasiya tələb edilməsi istisna edilmişdir. Lakin hüquqi şəxsin işgüzar nüfuzunun ləkələnməsi halllarında 23-2-ci maddə ilə müəyyən edilən müdafiə vasitələri həmin müdafiənin xarakterinə və mahiyyətinə uyğun olduğu dərəcədə tətbiq edilə bilər. Məsələn mediada yayılan ləkələyici məlumatın təkzib edilməsinin tələb edilməsi vs.

4.3. **Maddə 23-3. Fiziki şəxsin şəxsi və ailə həyatına hörmət hüququ** *(təklif olunan redaksiya)*

**“Maddə 23-3. Fiziki şəxsin şəxsi və ailə həyatına hörmət hüququ**

23-3.1. Qanunla ayrı qayda nəzərdə tutulmamışdırsa, fiziki şəxsin razılığı olmadan onun şəxsi və ailə həyatı ilə bağlı hər hansı məlumatın, o cümlədən fərdi məlumatların toplanmasına, saxlanmasına, istifadəsinə və yayılmasına yol verilmir.

23-3.2. Fiziki şəxsin şəxsi və ailə həyatı haqqında məlumatın dövlət və ya ictimai maraqlar üçün toplanması, saxlanması, istifadəsi və yayılması, həmçinin belə məlumatın əvvəllər ictimaiyyət üçün açıq olması və ya fiziki şəxsin özü tərəfindən və ya iradəsinə uyğun olaraq açıqlanması halları bu Məcəllənin 23-3.1-ci maddəsi ilə müəyyən olunmuş qaydaların pozulması hesab edilmir.

23-3.3. Fiziki şəxsin şəxsi və ailə həyatı haqqında qanunsuz olaraq əldə edilmiş və ya istifadə edilən məlumat mediada və ya internet şəbəkəsində mövcud olarsa, həmin şəxs bu məlumatın silinməsini, habelə onun sonrakı yayılmasının qarşısının alınmasını və (və ya) qadağan olunmasını tələb edə bilər.

23-3.4. Fiziki şəxsin şəxsi və ailə həyatı haqqında qanunsuz olaraq əldə edilmiş və ya istifadə edilən məlumat mülki dövriyyəyə daxil edilməsi məqsədilə hazırlanmış və ya mülki dövriyyədə olan sənədlərdə, videoyazılarda və ya digər maddi daşıyıcılarda mövcud olduqda, belə maddi daşıyıcıların nüsxələri həmin şəxsin tələbi ilə heç bir kompensasiya ödənilmədən məhkəmə qərarı əsasında dövriyyədən çıxarılmalı və məhv edilməlidir, bu şərtlə ki, belə maddi daşıyıcıların nüsxələri məhv edilmədən müvafiq məlumatın silinməsi mümkün olmasın.

23-3.5. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, fiziki şəxsin razılığı olmadan onun yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların açıqlanmasına yol verilmir.

23-3.6. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, fiziki şəxs onun şəxsi və ailə həyatı barəsində saxlanılan məlumatlarla, o cümlədən ona aid fərdi məlumatlarla tanış olmaq və onları əldə etmək hüququna malikdir.

23-3.7. Fiziki şəxs öldükdə onun şəxsi və ailə həyatına hörmət hüququnun müdafiəsi vərəsələri tərəfindən həyata keçirilir.”

*<u>Ümumi məlumat</u>*

---

[79] “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair” 24 aprel 2020-ci il tarixli Qərarı.

4.3.1. Təklif olunan maddədə qanunla ayrı qayda nəzərdə tutulmamışdırsa, fiziki şəxsin razılığı olmadan onun **şəxsi və ailə həyatı ilə bağlı istənilən məlumatlarının** (fərdi məlumatları da daxil olmaqla) **məxfiliyi** müdafiə olunur. Qeyd edilməlidir ki, belə müdafiənin konstitusion əsasını Konstitusiyanın 12-ci maddəsi və 32-ci maddəsi, beynəlxalq hüquqi əsasını isə "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi" haqqında Avropa Konvensiyasının "Şəxsi həyata və ailə həyatına hörmət hüququ" *(Right to respect for private and family life)* adı altında 8-ci maddəsi təşkil edir.

4.3.2. Nəzərə alınmalıdır ki, şəxsi və ailə həyatına hörmət hüququ şəxsin əsas şəxsiyyət hüquqlarından birini təşkil edir və bu baxımdan 23-3-cü maddə 23-1-ci maddəyə münasibətdə **xüsusi norma** kimi çıxış edir. Sonuncu maddənin müddəaları isə şəxsi və ailə həyatına hörmət hüququ ilə bağlı münasibətlərə **subsidiar şəkildə** (yəni, 23-3-cü maddədə birbaşa tənzimlənməyən və ona zidd olmayan hissədə) tətbiq edilir .

*23-3.1-ci maddə üzrə*

4.3.3. Təklif olunan maddə ilə müəyyən edilən ümumi qaydaya əsasən, fiziki şəxsin **razılığı olmadan** onun şəxsi və ailə həyatı ilə bağlı istənilən məlumatlarının, o cümlədən fərdi məlumatların toplanmasına, saxlanmasına, istifadəsinə və yayılmasına **yol verilmir**.

4.3.4. Sözügedən maddədənin mətnindəki "**istifadə**" sözü geniş mənada başa düşülməklə, istifadənin məqsədindən və formasından asılı olmayaraq, müvafiq məlumatlar üzərində aparılan bütün növ əməliyyatları ehtiva edir.

*23-3.2-ci maddəsi üzrə*

4.3.5. Təklif edilən maddəyə görə aşağıdakı hallarda fiziki şəxsin şəxsi və ailə həyatı ilə bağlı məlumatların toplanması, saxlanması, istifadəsi və yayılması 23-3.1-ci maddə ilə müəyyən olunmuş **qaydaların pozulması hesab edilmir**:

(i) dövlət və ya ictimai maraqlar varsa[80];

(ii) əvvəllər bu məlumatlar ictimaiyyət üçün açıq olmuşsa;

(iii) fiziki şəxsin özü tərəfindən və ya onun iradəsinə uyğun olaraq açıqlanmışsa.

*23-3.3-cü maddə üzrə*

4.3.6. Təklif edilən maddədə fiziki şəxsin şəxsi və ailə həyatı haqqında qanunsuz olaraq əldə edilmiş məlumat **mediada** və ya **internet şəbəkəsində** mövcud olduqda, onun sözügedən hüquqlarının qorunması üçün **xüsusi üsullar** təsbit edilir. Belə ki, fiziki şəxsin həmin məlumatların internet şəbəkəsindən **silinməsini**, onun **sonrakı yayılmasının qarşısının alınmasını** və (və ya) **qadağan olunmasını** tələb etmək hüququ vardır. Misal üçün, şəxs onun şəxsi həyatı ilə bağlı videonun sosial şəbəkədə (internetdə) yayıldığını gördükdə, pozulmuş hüququnun bərpası məqsədi ilə məhkəməyə müraciət edərək sosial şəbəkə operatoru tərəfindən həmin təsvirin müvafiq şəbəkədən silinməsini tələb etməklə

[80] Dövlət və ictimai maraqlarla bağlı həmçinin bax Konsepsiya sənədinin 4.4.6-ci bəndinə.

yanaşı həmçinin gələcəkdə də həmin operator tərəfindən icazəsiz yayılmasına qadağa qoyulmasını tələb edə bilər. Eyni zamanda, hüququ pozulmuş şəxs sözügedən videonun üçüncü şəxslər tərəfindən də sonrakı yayılmasının qarşısının alınması üçün operator tərəfindən əlavə mümkün tədbirlərin görülməsini tələb edə bilər (məsələn, videonun əks olunduğu faylların de-indeksasiyasının aparılmasını).

*23-3.4-cü maddə üzrə*

4.3.7. Təklif edilən maddəyə əsasən, fiziki şəxsin qanunsuz olaraq əldə edilmiş və ya istifadə edilən müvafiq məlumatları mülki dövriyyədə olan və ya dövriyyəyə buraxılması nəzərdə tutulan maddi daşıyıcılarda (məsələn, kitablar, jurnallar, CD-lər və digər daşıyıcılarda) mövcud olduqda, hüquqları pozulmuş şəxs məhkəmə vasitəsilə həmin **maddi daşıyıcıların dövriyyədən çıxarılmasını və məhv edilməsini** tələb edə bilər, bu şərtlə ki belə maddi daşıyıcıların nüsxələri məhv edilmədən müvafiq məlumatın silinməsi mümkün olmasın. Bu hallarda, hüququ pozulan şəxs, dövriyyədən çıxarılan və məhv edilən nüsxələr üçün hər hansı kompensasiya ödəmək məcburiyyətində deyil. Məsələn, bir yazıçı bir şəxsin qanunsuz olaraq əldə edilmiş şəxsi məlumatları əsasında roman yazıb nəşr etdirdiyi halda (romandakı məlumatlar şəxsin eyniləşdirilməsinə imkan verirsə) məhkəmə həmin kitabların dövriyyədən çıxarılaraq məhv edilməsinə qərar verə bilər.

*23-3.5-ci maddəsi üzrə*

4.3.8. Şərh edilən maddədə fiziki şəxsin **yazışmaları, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatlarının məxfiliyi** onun şəxsi və ailə həyatına hörmət hüququ çərçivəsində qorunur. Bu baxımdan ümumi qayda olaraq sözügedən məlumatların şəxsin razılığı olmadan açıqlanması yolverilməzdir. Qeyd edilməlidir ki, bu maddənin konstitusion əsasını Konstitusiyanın 32-ci maddəsinin IV hissəsi təşkil edir.

*23-3.6-cı maddəsi üzrə*

4.3.9. Təklif edilən 23-3.6-cı maddədə fiziki şəxsin onun şəxsi və ailə həyatı barəsində hər hansı üçüncü şəxsdə saxlanılan (saxlanılma formasından asılı olmayaraq) məlumatlarla, o cümlədən ona aid fərdi məlumatlarla **tanış olmaq** və belə məlumatları **əldə etmək** hüququ təsbit edilmişdir. Nəzərə alınmalıdır ki, sözügedən hüquq mövcud qanunvericiliklə də tanınır (məsələn, "İnformasiya əldə etmək haqqında" Qanunun 38.5 və 38.6-cı maddələri, "Fərdi məlumatlar haqqında" Qanunun 7.1.3-cü maddəsi).

4.3.10. Həmçinin qeyd edilməlidir ki, maddənin mətnindən göründüyü kimi müvafiq məlumatlarla tanış olmaq və onları əldə etmək hüququnun həyata keçirilməsinə **qanunla məhdudiyyətlər** qoyula bilər.[81]

---

[81] Məsələn, bax "İnformasiya əldə etmək haqqında" Qanunun 38.5-ci maddəsi.

*23-3.7-ci maddəsi üzrə*

4.3.11. Təklif edilən 23-3.7-ci maddədə fiziki şəxs öldükdə, 23-1-ci maddədə və 23-3-cü maddədə müəyyən edilmiş üsullarla onun şəxsi və ailə həyatına hörmət hüququnun müdafiəsinin həmin şəxsin **vərəsələri** tərəfindən həyata keçirilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur.

4.4. **23-4-cü maddə. Fiziki şəxsin təsvirinin və səsinin müdafiəsi** *(təklif olunan redaksiya)*

**"23-4-cü maddə. Fiziki şəxsin təsvirinin və səsinin müdafiəsi**

23-4.1. Fiziki şəxsin təsvirinin, o cümlədən onun təsvir olunduğu fotoşəkilin, videoyazının və ya incəsənət əsərinin yayılmasına və sonrakı istifadəsinə həmin şəxsin razılığı ilə yol verilir. Fiziki şəxsin ölümündən sonra isə onun təsvirindən istifadəyə vərəsələrinin razılığı ilə yol verilir. Razılıq aşağıdakı hallarda tələb olunmur:

23-4.1.1. təsvirdən dövlət və ictimai maraqlar üçün istifadə edildikdə;

23-4.1.2. fiziki şəxsin təsviri ictimaiyyət üçün açıq yerlərdə və ya kütləvi tədbirlərdə (yığıncaqlar, qurultaylar, konfranslar, konsertlər, tamaşalar, idman yarışları və bu kimi tədbirlər) aparılan çəkilişlər zamanı əldə edildikdə, bu şərtlə ki, həmin şəxsin təsviri əsas istifadə obyekti olmasın.

23-4.2. Fiziki şəxsin qanunsuz olaraq əldə edilmiş və ya istifadə edilən təsviri mediada və ya internet şəbəkəsində yayılarsa, həmin şəxs bu təsvirin silinməsini, habelə onun sonrakı yayılmasının qarşısının alınmasını və (və ya) qadağan olunmasını tələb edə bilər.

23-4.3. Fiziki şəxsin qanunsuz olaraq əldə edilmiş və ya istifadə edilən təsviri mülki dövriyyəyə daxil edilməsi məqsədilə hazırlanmış və ya mülki dövriyyədə olan sənədlərdə, videoyazılarda və ya digər maddi daşıyıcılarda mövcud olduqda, belə maddi daşıyıcıların nüsxələri həmin şəxsin tələbi ilə heç bir kompensasiya ödənilmədən məhkəmə qərarı əsasında dövriyyədən çıxarılmalı və məhv edilməlidir, bu şərtlə ki, belə maddi daşıyıcıların nüsxələri məhv edilmədən müvafiq təsvirin silinməsi mümkün olmasın.

23-4.4. Bu maddədə müəyyən edilmiş qaydalar fiziki şəxsin səsinin müdafiəsinə də (belə müdafiənin xarakterinə və mahiyyətinə uyğun gələn dərəcədə) tətbiq edilir."

*Ümumi məlumat*

4.4.1. İnsanın təsviri onun **şəxsi həyatının tərkib hissəsi** olmaqla[82] onun şəxsiyyətinin əsas atributlarından birini təşkil edir və şəxsin unikal xüsusiyyətlərini göstərərək onu digər şəxslərdən fərqləndirir. Müasir dövrdə texnologiyanın sürətli inkişafı fonunda insan təsvirinin icazəsiz ələ keçirilməsi, ötürülməsi və ya istifadəsi olduqca asanlaşdığından, bununla bağlı şəxslərin hüquqlarının mühafizəsi xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən, bir çox ölkələrin (məsələn, Rusiya[83], Fransa[84], Almaniya,[85] İspaniya, İtaliya, İsveçrə,

---

[82] Öncü, Arslan Gülay, Avrupa İnsan Hakları Sözleşmesinde Özel Yaşamın Korunması Hakkı,Beta, 2011, İstanbul, s. 237.

[83] Rusiya Mülki Məcəlləsinin 152.1-ci maddəsi.

[84] Personality rights in European tort law / [edited by] Gert Brüggemeier, Aurelia Colombi Ciacchi and Patrick O'Callaghan., Cambridge University Press, 2010, p.16.

[85] Məsələn, Almaniyanın "İncəsənət və müəlliflik hüquqları haqqında" qanunun 22-ci maddəsi ("Kunsturhebergesetz");

İngiltərə, Şotlandiya)[86] qanunvericiliyində olduğu kimi, Azərbaycan Respublikasının qanunvericiliyində də **fiziki şəxsin təsvirinə dair hüququn** *(right to one's image, droit à l'image)* müdafiəsi ilə bağlı normativ tənzimləmənin **ayrıca maddədə** olmaqla daha müfəssəl təsbit edilməsi təklif edilir. Burada əsas qayda ondan ibarətdir ki, hər bir şəxs öz **təsvirindən istifadəyə nəzarət etmək** hüququna malikdir və bununla əlaqədar şəxsin təsvirinin əldə edilməsinə, istifadəsinə və yayılmasına, bir qayda olaraq, yalnız həmin şəxsin **razılığı ilə** yol verilir[87].

4.4.2. Nəzərə alınmalıdır ki, təklif edilən 23-4-cü maddə 23-1-ci *(Şəxsiyyət hüquqları)* və 23-3-cü *(Fiziki şəxsin şəxsi və ailə həyatına hörmət hüququ)* maddələrə münasibətdə **xüsusi norma** kimi çıxış edir[88]. Həmin maddələrin müddəaları fiziki şəxsin təsvirinin müdafiəsi ilə bağlı münasibətlərə **subsidiar şəkildə**[89] tətbiq edilir.

4.4.3. *Avropa İnsan Hüquqları Məhkəməsinin* təcrübəsində də "şəxsin təsvirinin qorunması hüququ" tanınmaqla Konvensiyanın 8-ci maddəsi ilə təsbit edilən **şəxsi həyata hörmət hüququ ilə birgə qiymələndirilir**.[90] Məhkəmənin mövqeyinə əsasən, bu hüquq əsasən *şəxsin təsvirindən istifadəyə nəzarət hüququnu*, o cümlədən *təsvirin yayılmasını qadağan etmək imkanını* nəzərdə tutur.[91] Həmçinin, Məhkəmə qeyd etmişdir ki, şəxsin təsvirindən istifadəyə nəzarət hüququnun müdafiəsi dövlətin Konvensiya ilə müəyyən edilmiş pozitiv öhdəliyini təşkil edir[92].

*23-4.1-ci maddə üzrə*

4.4.4. Təklif edilən maddənin birinci cümləsində, fiziki şəxsin təsvirinin üçüncü şəxslər tərəfindən yayılması, habelə sonrakı istifadəsi ilə bağlı ümumi qayda müəyyənləşdirilərək qeyd olunan hərəkətlərə yalnız **şəxsin razılığı ilə** yol verildiyi təsbit edilir. Burada "**fiziki şəxsin təsviri**" anlayışı geniş mənada başa düşülməklə, şəxsin kimliyini birbaşa müəyyənləşdirməyə imkan verən istənilən təsviri, habelə təsvirin əks olunduğu istənilən daşıyıcını əhatə edir (məsələn, fotoşəkil, videoyazı, incəsənət əsəri, video oyun fiquru, karikatura, kukla və s)[93]. Təklif olunan maddədəki "**təsvirin yayılması**" ifadəsi də geniş

---

[86] Personality rights in European tort law / [edited by] Gert Brüggemeier, Aurelia Colombi Ciacchi and Patrick O'Callaghan., Cambridge University Press, 2010, p.571.

[87] *İbid.*

[88] Şəxsin təsviri fərdi məlumatlardan birini təşkil edir.

[89] Yəni, 23-4-cü maddə ilə birbaşa tənzimlənməyən və həmin maddənin müddəalarına zidd olmayan hissədə.

[90]CASE OF VON HANNOVER v. GERMANY (No. 2) *(Applications nos. 40660/08 and 60641/08)*, § 95, 96, (onlayn:12.09.2024: https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-109029%22]} )

[91] *Supra* qeyd 64, § 96.

[92] *Supra* qeyd 64, § 72.

[93] Müqayisə üçün Alman hüquq doktrinasında məhkəmə təcrübəsində formalaşmış ümumi anlayışa əsasən "fiziki şəxsin təsviri" dedikdə "həmin təsvirdə fiziki şəxsə xas olan elə əlamətlərin əks olunması nəzərdə tutulur ki, həmin təsvir bənzərləri arasında olsa belə fiziki şəxsi tanıtma qabiliyyətinə sahib olsun" (*bax Grüneberg/Sprau, BGB § 823, Rn. 120, S. 1515 – Alman Mülki Məcəlləsinin Kommentariyası (əvvəlki Palandt), 83. Auflage 2024, C.H. Beck, München)*.

təfsir olunmaqla, təsvirin hər hansı informasiya ehtiyatında, o cümlədən internet şəbəkəsində və mediada açıqlanması (yerləşdirilməsi) və ya hər hansı digər üsulla müvafiq təsvirlə şəxslərin tanış olmasına imkanın yaradılması kimi başa düşülməlidir. Maddədənin mətnindəki "**sonrakı istifadə**" ifadəsi də geniş mənada başa düşülməklə, hər hansı şəxs tərəfindən yayılmış təsvirin üzərində, məqsədindən və formasından asılı olmayaraq, aparılan bütün növ əməliyyatları ehtiva edir.

4.4.5. Nəzərə alınmalıdır ki, fiziki şəxsin təsviri onun **ölümündən sonra** da qorunur və təsvirdən istifadəyə yalnız onun **vərəsələrinin razılığı** ilə yol verilir.[94]

4.4.6. Eyni zamanda, qeyd olunan maddədə fiziki şəxsin təsvirinin yayılmasına və istifadəsinə onun (ölümündən sonra isə vərəsələrinin) **razılığının tələb olunmadığı hallar** da müəyyən olunur:

(i) təsvirdən **dövlət və ictimai maraqlar** üçün istifadə edildikdə (23-3.1.1-ci maddə).**[95]** Burada **"dövlət və ictimai maraqlar"** ifadəsi ilk növbədə razılığın tələb olunmamasının qanunun tələbindən irəli gəldiyi halları əhatə edir. Həmçinin, hesab edirik ki, qeyd olunan ifadə təfsir edilərkən Avropa İnsan Hüquqları Konvensiyasının 8.2-ci maddəsində təsbit edilən "milli təhlükəsizlik", "ictimai asayiş", "ölkənin iqtisadi rifah maraqları", "iğtişaşın və ya cinayətin qarşısının alınması", "sağlamlığın qorunması", "əxlaqın qorunması" və 'digər şəxslərin hüquq və azadlıqlarının müdafiə edilməsi" əsaslarından irəli gələn dövlətin və cəmiyyətin maraqları nəzərə alınmalıdır.

(ii) fiziki şəxsin təsviri **ictimaiyyət üçün açıq yerlərdə və ya kütləvi tədbirlərdə** aparılan çəkilişlər zamanı əldə edildikdə, bu şərtlə ki, bu cür təsvir əsas istifadə obyekti olmasın (23-3.1.2-ci maddə). Bu halda razılıq ona görə tələb edilmir ki, belə yerlərdə çəkilişin əsas məqsədi şəxslərin deyil prosesin təsviridir. Həmçinin, belə hallarda hər bir iştirakçının ayrıca razılığını almaq və ya kütləvi fotolar çəkilərkən razılıq verməyən şəxslərin şəkilə düşməsindən yayınmaq, habelə razılıq verməyən ayrı-ayrı fərdlərin kütlədən çıxarılmasının təmin etmək praktiki olaraq qeyri-mümkündür[96]. Nəzərə alınmalıdır ki, **şəxsi tədbirlərdə** (məsələn, ad günlər, toylar, yas mərasimləri və s.) əldə edilən təsvirlər bu istisnaya daxil deyil və həmin təsvirlərin yayılması üçün razılıq tələb olunur[97]. Bununla belə, dövlət və ya ictimai xadimlərin iştirak etdiyi şəxsi tədbirlərdə onların razılığı olmadan təsvirlərinin

---

Həmçinin, qrafika, karikatura, komik fiqurlar, kukla, video oyun fiquru, siluet, sikkə, skulptura və çap olunaraq film, televiziya və ya internet üzərindən reproduksiya olunmuş istənilən forma "fiziki şəxsin təsvirinə" daxil edilir *(Wandtke/Bullinger/Fricke, Praxis Kommentar Urheberrecht, KUG § 22, Rn. 5, 6. Auflage 2022, C.H. Beck, München).*

[94] Bu yanaşma xarici ölkələrin təcrübəsində də tətbiq olunur (məsələn, bax Rusiyanın Mülki Məcəlləsinin 152.1-ci maddəsinin 1-ci bəndinə.

[95] 23-4.2-ci maddənin izahına bax.

[96] Wandtke/Bullinger/*Fricke,* Praxis Kommentar Urheberrecht, KUG § 23 [Ausnahmen zu § 22], Rn. 39, 6. Auflage 2022, C.H. Beck, München

[97] *İbid.*

yayılması mümkün hesab edilir (təsvirdən ictimai maraq üçün istifadə edilməsi əsası ilə)[98].

*23-4.2-ci maddə üzrə*

4.4.7. Təklif edilən maddədə fiziki şəxsin razılığı olmadan onun təsviri mediada və ya internet şəbəkəsində yayıldığı halda, onun təsvirinin qorunması üçün **xüsusi üsullar** təsbit edilir. Bu üsulların tətbiqi ilə əlaqədar daha ətraflı bax Konsepsiya sənədinin 4.3.6-cı bəndindəki izaha.

*23-4.3-cü maddə üzrə*

4.4.8. Təklif edilən maddədə təsbit edilmiş hüquqi mexanizmin tətbiqi ilə əlaqədar daha ətraflı bax Konsepsiya sənədinin 4.4.5-ci bəndindəki izaha.

*23-4.4-cü maddə üzrə*

4.4.9. Qeyd olunan maddədə fiziki şəxsin təsvirin müdafiəsi ilə bağlı qaydaların fiziki şəxsin səsinə də *mutatis mutandis*, yəni səsin müdafiəsinə tətbiq edilə biləcək dərəcədə şamil olunması müəyyən edilir[99].

4.5. **Maddə 23-5. Mənəvi zərərə görə kompensasiya** *(təklif olunan redaksiya)*

"**Maddə 23-5. Mənəvi zərərə görə kompensasiya**

23-5.1. Fiziki şəxs şəxsiyyət hüquqlarının pozulması, o cümlədən maddi zərərin vurulması nəticəsində şəxsiyyət hüquqlarının pozulması ilə əlaqədar, habelə qanunla nəzərdə tutulmuş digər hallarda vurulmuş mənəvi zərərə (fiziki iztirab və ya mənəvi sarsıntılara) görə kompensasiyanın ödənilməsini tələb edə bilər.

23-5.2. Məhkəmələr tərəfindən mənəvi zərərə görə kompensasiyanın miqdarı müəyyən edilərkən ədalətlilik və mütənasiblik meyarları əsas tutulmaqla fiziki iztirab və mənəvi sarsıntıların xarakteri və dərəcəsi, zərərçəkənin fərdi xüsusiyyətləri, pozuntu törətmiş şəxsin maddi vəziyyəti, eləcə də diqqətəlayiq başqa amillər nəzərə alınır.

23-5.3. Fiziki şəxs öldükdə və ya sağlamlığına zərər vurulduqda, həmin şəxsin yaxınları onlara vurulmuş mənəvi zərərə görə kompensasiya ödənilməsini tələb edə bilərlər. Həmin şəxslərin zərərçəkmiş şəxsə yaxınlıq dərəcəsi mənəvi zərərə görə kompensasiyanın miqdarı müəyyən edilərkən nəzərə alınır."

*23-5.1-ci maddə üzrə*

---

[98] *İbid.*

[99] Fiziki şəxsin səsinin şəxsiyyət hüquqları çərçivəsində qorunması haqqında bax. *Supra* qeyd 6, p. 423-424.

4.5.1. İlk növbədə qeyd olunmalıdır ki, Konstitusiya Məhkəməsi Plenumu özünün “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair” 31 may 2002-ci il tarixli Qərarında mülki qanunvericilikdə şəxsiyyət hüquqlarının pozulması nəticəsində vurulmuş zərərin ödənilməsi ilə bağlı müddəaların natamam olduğunu müəyyən edərək Azərbaycan Respublikasının Milli Məclisinə bununla əlaqədar qanunvericiliyin təkmilləşdirilməsini tövsiyə etmişdir.

4.5.2. Təklif edilən 23-5.1-ci maddənin mətni Konstitusiya Məhkəməsinin həmin Qərarında, habelə “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair” 24 aprel 2020-ci il tarixli Qərarında və Ali Məhkəmənin “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” 3 noyabr 2008-ci il tarixli 7 nömrəli Plenum Qərarında ifadə edilmiş mövqelər nəzərə alınaraq tərtib edilmişdir.

4.5.3. Nəzərə alınmalıdır ki, təklif olunan maddəyə görə şəxsin şəxsiyyət hüququnun pozulması özü-özlüyündə həmin şəxsə mənəvi zərərin vurulmasına dəlalət etmir. Mənəvi zərərin yaranması üçün zərərçəkən həmçinin pozuntu nəticəsində fiziki iztirab və ya mənəvi sarsıntı keçirməlidir[100]. Yalnız qeyd olunan hər iki amil (şəxsiyyət hüququnun pozuntusu və bununla əlaqədar fiziki iztirabların və ya mənəvi sarsıntının keçirilməsi) olduğu halda, şəxsin mənəvi zərərlə bağlı tələbi təmin edilə bilər.

4.5.4. Həmçinin qeyd olunmalıdır ki, sözügedən maddədə “**kompensasiya**” deyildikdə mənəvi zərərin vurulmasına görə **pul şəklində olan təzminat** başa düşülür.

*<u>23-5.2-ci maddə üzrə</u>*

4.5.5. Təklif edilən 23-5.2-ci maddədə mənəvi zərərə görə kompensasiyanın məbləğini müəyyən edərkən məhkəmələr tərəfindən nəzərə alınmalı meyarlar və hallar göstərilmişdir. Belə ki, ilk növbədə məhkəmələr kompensasiyanın miqdarını hesablayarkən bütün diqqətəlayiq halları, o cümlədən psixoloji, sosioloji və iqtisadi amilləri **ədalətlilik** və **mütənasiblik** meyarları baxımından qiymətləndirməlidir.

4.5.6. Mənəvi zərərə görə kompensasiyanın məbləği hesablanarkən məhkəmənin nəzərə almalı olduğu hallara münasibətdə isə qeyd edilməlidir ki, təklif olunan maddədə bəzi əsas hallar göstərilməklə (fiziki iztirab və mənəvi sarsıntıların xarakteri və dərəcəsi, zərərçəkənin fərdi xüsusiyyətləri, pozuntu törətmiş şəxsin maddi vəziyyəti[101]) diqqətəlayiq halların “**açıq siyahısı**” müəyyən edilmişdir.

---

[100] Şəxs tərəfindən fiziki iztirabın və ya mənəvi sarsıntının keçirildiyi, məsələn, sağlamlığa zərərin vurulması barədə tibbi arayış, psixoloqun rəyi, şahid ifadələri və digər vasitələrlə sübuta yetirilə bilər. Fiziki iztirabın və ya mənəvi sarsıntının keçirilməsi işin hallarından da aşkar ola və hər hansı əlavə sübutetmə tələb etməyə bilər (məsələn, ailə üzvünün ölümü nəticəsində şəxsin mənəvi sarsıntı keçirməsi).

[101] Xarici doktrinada hesab edilir ki, mənəvi zərərin kompensasiyasının yalnız zərərin əvəzinin ödənilməsi deyil, həm də hüquqa zidd davranışın qarşısının alınması funksiyası var. Bu səbəbdən, mənəvi zərər vuran şəxsi eyni hərəkəti təkrarlamaqdan çəkindirmək üçün tətbiq edilən kompensasiya məbləği onun maddi imkanları baxımından

*23-5.3-cü maddə üzrə*

4.5.7. Fiziki şəxsin ölməsi və ya sağlamlığına zərər vurulması nəticəsində üçüncü şəxslərə vurulmuş mənəvi zərərə görə kompensasiya tələb etmək hüququ Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsinin şərh edilməsinə dair" 24 aprel 2020-ci il tarixli Qərarında tanınmışdır.

4.5.8. Qeyd olunan Qərara əsasən, bu hüquq ölmüş və ya sağlamlığına zərər vurulmuş fiziki şəxsin *yaxınlarına* məxsusdur. Təklif olunan maddədə də istifadə edilən "**şəxsin yaxını**" anlayışı Konstitusiya Məhkəməsinin izahına uyğun olaraq *"ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxslə xüsusi bağlılığı ilə səciyyələnən, səmimi münasibətinin və mənəvi yaxınlığının olduğu, həyatında mühüm yer tutan, uzun müddət birgə yaşadığı və birgə təsərrüfat apardığı, ölümündən və ya sağlamlığına vurulan zərər nəticəsində həyat şəraiti* dəyişmiş, həqiqətən fiziki iztirab və mənəvi sarsıntı keçirmiş insan" mənasında başa düşülməlidir.

4.5.9. Şəxsin yaxınları keçirdikləri mənəvi sarsıntı və iztirabın dərəcəsinə, zərərçəkmiş şəxsə yaxınlıq dərəcəsinə  və digər amillərə müvafiq olaraq birgə və ya ayrı-ayrılıqda təzminat almaq hüququna malikdirlər.

---

çəkindirici olmalıdır: Maestle, Tobias, Der zivilrechtliche Schutz vor sexuellen Belaestigung am Arbeitsplatz, Diss., Berlin, 1999, s. 132